Prof.Dr. Kamil Veli Nerimanoğlu'nun 75. Doğum Yılına Özel Armağan Sayısı

ATDD 2013

ISSN: 2148-2292

AKADEMİK TARİH VE DÜŞÜNCE DERGİSİ

Academic Journal of History and Idea

*Araştırma Makalesi* https://doi.org/10.46868/atdd.165 *Original Article*

# Ötən əsrin 50-60-cı illərində Azərbaycan ədəbi prosesi və Yazıçılar İttifaqında ixtilaflar (1959-1960)*

**Cemil Hasanli***

**ORCID: 0000-0001-6844-1812**

**Öz**

Məqalədə ötən əsrin 60-cı illərində Azərbaycanda ədəbiyyat və sənətdə müşahidə edilən yeni meyllər, yaradıcılıq təşkilatlarında gedən proseslər əhatə edilmişdir. Sənət və ədəbiyyatda bu illər 60-ıncılar kimi yadda qaldı. Lakin bu ifadə yalnız sənətə və ədəbiyyata aid deyildi, bütövlükdə düşüncə tərzi və idarəçilik sistemində baş vermiş liberalizmin təzahür forması idi. Şübhəsiz ki, sistemin yumşalması ədəbiyyat və sənətdə yaradıcılıq imkanlarını genişləndirdi. Həmin illərdə ədəbi prosesdə ənənəvi Sovet ədəbiyyatından fərqli yeni əsərlər,

---

**Bir bölümü burada yayımlanmış yazının tamamı yakında kitap olarak basılacaktır.*

** Prof. Dr., Londra Universitesi, Tarihi Araştırmalar İnstitutusu, Londra-İngiltere, jhasanli@yahoo.com*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***

HASANLİ, C., ''Ötən əsrin 50-60-cı illərində Azərbaycan ədəbi prosesi və Yazıçılar İttifaqında ixtilaflar (1959-1960)'', *Akademik Tarih ve Düşünce Dergisi*, C. 8, S. 3-Ek, 2021, s.57-99.

yeni obrazlar meydana çıxdı, musiqi və rəssamlıqda sistemdən daha çox vətəni, insanı, fərdi tərənnüm edən, onun milli düşüncələrini və ümumbəşəri duyğularını sənətin dili ilə təqdim edən yeni nümunələr yarandı. Lakin bütövlükdə 60-cı illərdəki Azərbaycan ədəbiyyatı, əvvəlki dövrdən fərqlənən sənət nümunələri kiçik istisnalarla partiya orqanlarının müəyyən etdiyi "formaca milli, məzmunca sosialist" yaradıcılıq laboratoriyasının məhsulu idi. Azərbaycan yaradıcılıq təşkilatlarında, xüsusilə 60-cı illərin birinci yarısında Yazıçılar İttifaqında səngimək bilməyən intriqalar, ixtilaflar, qarşıdurmalar yaxşı ədəbi nümunələr yaratmaq uğrunda deyil, daha çox mövqelər uğrunda, sistemin imtiyazlarından yararlanmaq uğrunda mübarizə idi.

**Anahtar kelimeler:** Azərbaycan Yazıçılar İttifaqı, DTK, Əbülfəz Elçibəy, Ədəbiyyat və incəsənət qəzeti, İsa Hüseynov, Kamil Vəli Nərimanoğlu, Mehdi Hüseyn, Mərkəzi Komitə, Nikita Xruşşov.

**Gönderme Tarihi: 01/01/2021 Kabul Tarihi:29/06/2021**

# The literary process of Azerbaijan in the 50-60s of the last century and disagreements in the Writers' Union (1959-1960)

**Cemil Hasanli***
**ORCID: 0000-0001-6844-1812**

**Abstarct**

The article highlights the new trends observed in the literature and art of Azerbaijan in the 60s of the last century, the processes taking place in creative organizations. In art and literature, these years are remembered as the 60s. But this expression referred not only to art and literature, it was a form of manifestation of liberalism that took place in the system of thinking and management in general. Undoubtedly, the softening of the system has expanded creative opportunities in literature and art. In those years, new works appeared in the literary process, new images, different from traditional Soviet literature, and in music and painting-new samples, more glorifying the motherland, man, personality, presenting its national thoughts and universal feelings in the language of art. But in general,

* *Professor, Londra Universitesi, Institute of Historical Research at University of London, London-England, jhasanli@yahoo.com*

***You can refer to this article as follows:***
HASANLİ, C., ‘’Ötən əsrin 50-60-cı illərində Azərbaycan ədəbi prosesi və Yazıçılar İttifaqında ixtilaflar (1959-1960)’’, *Academic Journal of History and Idea*, Vol. 8, Issue 3- additional, 2021, p.57-99.

Azerbaijani literature of the 60s, art samples that differ from the previous period, with a few exceptions, were the product of a creative laboratory, defined by party bodies as "National in form, socialist in content." The intrigues, disagreements, conflicts that could not end in the creative organizations of Azerbaijan, especially in the Writers' Union in the first half of the 60s, were not a struggle for the creation of good literary models, but rather for positions, for the use of the privileges of the system.

**Keywords:** Azerbaijan Writers' Union, KGB, Abulfaz Elchibey, Literature and Art newspaper, Isa Huseynov, Kamil Veli Narimanoglu, Mehdi Huseyn, Central Committee, Nikita Khrushchev.

**Received Date: 01/01/2021 Accepted Date: 29/06/2021**

Special issue for Professor Kamil Veli Nerimanoğlu's 75th Birth Year
Hasanli/ ss 57-99

# Литературный процесс Азербайджана в 50-60-х годах прошлого века и разногласия в Союзе писателей (1959-1960)

**ДЖЕМИЛЬ ХАСАНЛИ***
**ORCID: 0000-0001-6844-1812**

**Резюме**

В статье освещены новые тенденции, наблюдавшиеся в литературе и искусстве Азербайджана в 60-х годах прошлого века, процессы, происходящие в творческих организациях. В искусстве и литературе эти годы запомнились как 60-е. Но это выражение относилось не только к искусству и литературе, оно было формой проявления либерализма, имевшего место в системе мышления и управления в целом. Несомненно, смягчение системы расширило творческие возможности в литературе и искусстве. В те годы в литературном процессе появились новые произведения, новые образы,

---

* *Профессор* - *Londra Universitesi, Институт исторических исследований Л ондонского университета, Лондон- Англия, jhasanli@yahoo.com*

***Ссылка на статью:***
HASANLİ, C., ‘’Ötən əsrin 50-60-cı illərində Azərbaycan ədəbi prosesi və Yazıçılar İttifaqında ixtilaflar (1959-1960)’’, *академическая история и мысль*, T.8, NO.3- дополнительный, 2021, C.57-99.

отличные от традиционной советской литературы, а в музыке и живописи-новые образцы, больше воспевающие родину, человека, личность, преподносящие ее национальные мысли и общечеловеческие чувства языком искусства. Но в целом азербайджанская литература 60-х годов, отличающиеся от предшествующего периода образцы искусства, за небольшими исключениями, были продуктом творческой лаборатории, определяемой партийными органами как "Национальная по форме, социалистическая по содержанию". Интриги, разногласия, конфликты, которые не могли закончиться в творческих организациях Азербайджана, особенно в Союзе писателей в первой половине 60-х годов, были борьбой не за создание хороших литературных образцов, а скорее за позиции, за использование привилегий системы.

**Ключевые слова:** Союз писателей Азербайджана, КГБ, Абульфаз Эльчибей, газета "Литература и Искусство", Иса Гусейнов, Кямиль Вели Нариманоглу, Мехти Гусейн, Центральный Комитет, Никита Хрущев.

**Получено: 01/01/2021** **Принято: 29/06/2021**

**Giriş**

Kamil Vəli Nərimanoğlunu 1970-ci ildən tanıyıram. Həmin il mən Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuşdum. Kamil müəllim isə Universitetin filologiya fakültəsini yenicə bitirib ümumi dilçilik kafedrasında müəllim saxlanılmışdı. Doğrusu belə uğur hər kəsə nəsib olmurdu və təhsildə, elmdə, intellektdə və ictimai işlərdə seçilən çox az tələbə birbaşa universitetdə müəllim saxlanılırdı. Həmin vaxtlar ADU Akademiya şəhərciyinin yanında yeni binaya köçürülsə də, tarix və filologiya fakültələri o zaman ki *Kommunist*, hazırkı *İstiqlaliyyət* küçəsindəki köhnə binada qalmışdı. Növbəlilik əsasında tədris həyata keçirilsə də, demək olar ki, hər iki fakültənin tələbələri bir-birilərini yaxşı tanıyır, tez-tez hər iki fakültənin professor və müəllimləri ilə qarşılaşmalı olurdular.

Biz universitetə daxil olanda hələ şəhər həyatına alışmamış çəlimsiz kənd uşaqları idik və həmin vaxt yataqxanada qaldığımızdan tarix fakültəsinin gənc müəllimi Əbülfəz Elçibəyin *"müridləri"* bizi tez öz cazibələrinə sala bildilər. Məhz həmin cazibədə mən 1970-ci ilin payızında Kami Vəli Nərimanoğlunu – o vaxt deyildiyi kimi Kamil Vəliyevi tanıdım. Çox xoşgörülü, gənc, hər kəsə, xüsusi ilə tələbə və gənclərə münasibətdə qayğıkeş bir müəllim idi. Universitetdə yeni işə başlamasına baxmayaraq öz həmyaşıdlarının *ağsaqqalı* hesab edilirdi. O, vaxtlar Əbülfəz bəyin ətrafında çox istedadlı, vətənsevər bir dairə formalaşmışdı və həmin dairədə

Malik Mahmudov (ağ Malik), Rafiq İsmayılov, Kamil Vəli Nərimanoğlu və yeni gəncliyin digər nümayəndələri vardı. Biz universitetə həmin vaxt yeni daxil olmuş tələbələr Əbülfəz bəyin əhatəsində bu istedadlı, vətənsevər insanları görür, onun söhbətlərində bu adamların adlarını eşidirdik. Bir qayda olaraq Əbülfəz bəy Universitetdə və ondan kənarda olan dostlarına ümidverici  tələbələrə xüsusi diqqət və qayğı göstərməyi xahiş edirdi. Kamil müəllimlə tanışlığımız da elə bu zəmində oldu. Sonralar Kamil müəllim Əülfəz bəy haqqında yazdığı kitabda həmin dövrün hadisələrinin bəzi maraqlı məqamlarına işıq tuta bildi.

Ötən əsrin 70-ci illərində ədəbi mühitə, ictimai müzakirələrə yeni gənc qüvvələr gəlmişdi. İdeya istiqamətinə görə onlar artıq tənqid hədəfinə çevrilmiş 60-cılar nəslinin davamı idilər. Onların içərisində Aydın Məmmədov, Kamil Vəliyev və digərləri kimi tez-tez mətbuatda çıxış edən, radioda xalq ruhu, xalq dili və xalq ədəbiyyatı ilə bağlı verilişlər aparan, gənc alimlər var idi. 60-cı illərin liberal ideyalarından sonra 70-ci illərin əvvəllərində total bir nəzarət mexanizmi qurulduğundan cəmiyyətdə söz demək, ictimai fikrin diqqətin çəkmək çox çətinləşmişdi.  1969-cu ilin noyabrından gənc yazıçı Mövlud Süleymanlının təşəbbüsü ilə efirə gedən *Bulaq* verilişi  həmin vaxtlar elin və dilin yaddaşına səyahət etmək, xalq ruhunu dilləndirmək baxımından kiçik bir imkanlar yaratmışdı.Həmin imkandan yararlanan və həm də xalqın ruhunu yararlandıranlardan bir filologiya fakültəsinin gənc müəllimi Kamil Vəli Nərimanoğlu idi.

Sonralar Kamil müəllim Azərbaycan dilçiliyi sahəsində namizədlik, doktorluq dissertasiyaları müdafiə etdi. Onun dil, ədəbiyyat, folklorla bağlı çoxlu kitabları çıxdı, ədəbi və əbədi abidəmiz olan *Kitabi-Dədə Qorqud'*la bağlı araşdırmaları işıq üzü gördü, *Dastan poetikası*, *Elin Yaddaşı-Dilin Yaddaşı*, *Linqivistik Poetikaya Giriş* adlı monaqrafiya və dərs vəsaitləri nəşr olubdu. Mən onun unudulmaz müəllimlərimiz professor Süleyman Əliyarlı və akademik Tofiq Hacıyev ilə *Kitabi-Dədə Qorqud'*un dərin qatlarına nüfuz edən maraqlı müzakirələrinin şahidi olmuş, bu müzakirələrdən dərin zövq almış və qürur hissi keçirmişəm. 1999-cu ildə Kamil Velinin qədim dastanla bağlı öz orjinal fikir və mülahizələrini ingilis dilində *The Poetics of the Book of Dede Korkut* adlı kitabda nəşr edilməsi Azərbaycan və Türkiyə qorqudşünaslığının dünya çapına çıxmasında böyük hadisə oldu.

Sovetlər Birliyinin çöküşündən sonra Kamil Vəli Nərimanoğlunun elmi araşdırmalarının əhatə dairəsi, yayım coğrafiyası daha da genişləndi. *Kitabi-Dədə Qorqud* araşdırmalarında olan səmimiyyət, sevgi, xalq ruhuna nüfuz etmək qabiliyyəti 1994-cü ildə Ankarada nəşr olunan *"Türk Dilinin Bestecisi, Ressamı ve Memarı"* Yunus Emreye də keçdi. Sonra *Azərbaycanın Dövlət Dili Siyasəti* ərsəyə gəldi, *Yunus Emre'nin Poetikası*, *Türk Halk Bilimi - Türk Dili ve Poetikası - Türk Fikir Hayatı* və digər fundamental işlər çap olundu.

Kamil Vəlinin 1926-cı il Türkoloji qurultayı ilə bağlı araşdırmaları, qurultayın materiallarını dərc etməsi, sonralar Sovet repressiyalarının

qurbanı olmuş qurultay iştirakçılarının həyat və fəaliyyəti ilə bağlı araşdırmaları yalnız elmi məzmuna malik olmayım, həm də mənəvi dəyər kəsb edir. 1926-cı ilin Bakı Türkoloji qurultayında əlifba məsələsində mübahisələr, dil məsələsi ətrafında müzakirələr, SSRİ-nin türk və müsəlman xalqlarının milli və mədəni inkişafı ilə bağlı mülahizələr Kamil Vəlinin qələmində yeni məzmun kəsb etdi. Hələ 1996-cı ildə biz Kamil Vəli ilə birlikdə artıq haqqın dərgahına qovuşmuş hocalarımız professor Süleyman Əliyarlı və akademik Tofiq Hacıyevin iştirakı ilə Türk Dil Kurumunun unudulmaz başkanı Ahmet Bican Ercilasunun keçirdiyi *"Bakı Türkoloji qurultayının 70 illiyi"*nə həsr edilmiş maraqlı bir konfransda iştirak etmişdik.

Kamil Vəli Nərimanoğlunun çoxtərəfli fəaliyyətinin bir siyasi tərəfi də vardır. 1992-ci ildə Azərbaycanda Elçibəyin milli hökuməti qurulanda o, Baş Nazirin müavini kimi yüksək bir vəzifə tuturdu. Həmin illərdə qısa zaman kəsiyində Elçibəy komandasının bir sıra fədakar üzvləri kimi Kamil Vəli də millətə və dövlətə xidmətin örnəyini yarada bildi, ölkənin təhsil və mədəniyyət siyasətinin sovet ideologiyasından təmizlənib milli məzmun kəsb etməsində mühüm rol oynadı və heç nəyi də öz adına çıxmaq niyyətində bulunmadı. Həmin vaxt yüksək dövlət və hökumət vəzifələrində təmsil olunan bəzilərindən fərqli olaraq Kamil Vəli Nərimanoğlu həmişə bir fikri israrla qeyd edir ki, ölkənin totalitarizmdən ümumbəşəri dəyərlərə keçirilməsi, xarici hərbi qüvvələrin Azərbaycandan çıxarılması, milli valyutanın buraxılması, iqtisadi reformalara başlanması, yeni təhsil və

mədəniyyət siyasətini bilavasitə Əbülfəz Elçibəy müəyyən edirdi, komanda isə həyata keçiridi.

Ötən il Kamil Vəli Nərimanoğlunun 70 yaşı tamam oldu. İndi o, dünyanın tanıdığı böyük alim və müəllimdir, İstanbul Aydın Universitetində Orta Doğu və Kafkasiya Uygulama və Araştırma Mərkəzini müdiridir. Yaşın bu müdrik çağında böyük alim və müəllim olaraq onun adına armağan kitab hazırlanır. Həmin kitaba Kamil Vəliyə də doğma olan *"Ötən əsrin 60-cı illərində Azərbaycan ədəbi prosesi və Yazıçılar İttifaqında ixtilaflar"* mövzusunda bir yazı vermək qərarına gəldim. Çünki az sonra Kamil Vəli Nərimanoğlu özü də həmin prosesin içində idi.

**1.Yeni rəhbərlik və Yazıçılar İttifaqının Köhnə Problemləri**

Rəhbərliyə gəldikdən sonra Vəli Axundovun ideoloji istiqamətdə qarşısında duran başlıca vəzifə yaradıcı ziyalılarla, ilk növbədə ədəbi düşərgə ilə münasibətləri qaydaya salmaq, onları yeni rəhbərliyin siyasəti ətrafında toplamaq idi. O, yaxşı başa düşürdü ki, millətçilik dalğasında keçmiş rəhbərlik cəzalandırılsa da, bu millətçiliyin əsas mənbəyi yaradıcı ziyalılar, ədəbiyyat və mədəniyyət xadimləri idi. Əslində, respublikaya nəzarət üçün ezam olunmuş respublika partiya təşkilatının ikinci katibi Vladimir Semiçastnının gözləri və qulaqları da bilavasitə yaradıcı ziyalılarda olmalı idi. Ədəbiyyat nəşri ilə bağlı Mətbuatda Hərbi və Dövlət Sirlərini Mühafizə edən Baş İdarəyə (Qlavlitə) tapşırıq verilmişdi ki, çapa gedən bütün ədəbi əsrlər diqqətlə nəzərdən keçirilsin və şübhə doğuran nümunələr rus dilinə tərcümə edilib Mərkəzi Komitəyə göndərsin.

1958-ci ildən Azərbaycan Yazıçılar İttifaqına (AYİ) partiyalı mövqeyi ilə seçilən Mehdi Hüseyn rəhbərlik edirdi. Ədəbiyyata XX əsrin 20-ci illərində gələn Mehdi Hüseyn daha çox 1948-ci ildə Bakı neftçilərinin həyatından bəhs edən *Abşeron* romanı, 1953-cü ildə tarixi mövzuda qələmə aldığı *Səhər* əsəri, partiyanın XX qurultayından sonra şəxsiyyətə pərəstişin tənqidi mövzusunda yazdığı *Yeraltı Çaylar Dənizə Axır* romanı ilə məşhurlaşmışdı. 1950-ci ildə ədəbi fəaliyyətinə görə Stalin mükafatı almış Mehdi Hüseyn ötən əsrin 50-ci illərində Azərbaycan Sovet nəsrinin görkəmli simalarından birinə çevrilmişdi. Onun 1958-ci ildə Süleyman Rəhimovdan sonra Yazıçılar İttifaqına rəhbərlik etməsi bu təşkilatda getdikcə dərinləşən intriqaları səngitmədi, əksinə müxtəlif regional qruplar arasında ziddiyyətləri daha da dərinləşdirdi. Mehdi Hüseynin həm yaradıcılığı, həm də partiyalı mövqeyi yeni rəhbərliyi təmin edirdi. Respublika rəhbərliyinə gəlmiş Vəli Axundov ona böyük etimad göstərirdi. 1964-cü ilin sentyabr ayında Axundovun təşəbbüsü ilə Mehdi Hüseynə Xalq Yazıçısı fəxri adı verilmişdi. Lakin bu etimada baxmayaraq respublika yaradıcı qüvvələri arasında kəskin xarakter almış qarşıdırmalar fasiləsiz olaraq 1965-ci ilin martında onun iclas zamanı iş otağında ölümünə qədər davam etdi. Mehdi Hüseyn rəhbərliyə gələndən sonra Dövlət Təhlükəsizliyi Komitəsinin (DTK) İttifaqda rolunu zəiflətməyə çalışırdı. Bu əslində ümumittifaq prosesi idi və şəxsiyyətə pərəstiş dövründə DTK cəmiyyətdə gözükölgəli vəziyyətə düşmüşdü. O, XX qurultaydan sonra şəxsiyyətə pərəstişin əsas tənqidçilərindən biri idi. Onun

*Qara Daşlar* romanı bu baxımdan səciyyəvi bir əsər idi. 60-cı illərdə DTK-da ziyalılarla iş bölməsində Yazıçılar İttifaqının kuratoru işləmiş Cabbar Bəylərov sonralar xatırlayırdı ki, *"Yazıçılar İttifaqı ilə DTK-nın arası bir o qədər də yaxşı deyildi...İttifaqın sədri Mehdi Hüseyn bir dəfə DTK əməkdaşlarını kəskin tənbeh etmişdi. Onlar DTK sədrinin tapşırığı ilə Yazıçılar İttifaqının xətti ilə keçirilən hansısa böyük tədbirə dəvətnamələr almaq üçün Mehdi Hüseynin yanına gələndə İttifaqın sədri təxminən belə bir ifadə işlədir: "İndi 37-ci il deyil. Lazım gəlsə biz özümüz, sizdən soruşmadan DTK üçün bilet ayırarıq". Yəni başa salır ki, onların əlində oyuncaq olmayacaq, öz işini özü görəcək. Bundan sonra üç ilə yaxın Yazıçılar İttifaqı ilə Komitə arasında demək olar ki, heç bir əlaqə yox idi".*[1]

50-ci illərin sonlarında ədəbiyyat və incəsənətə nəzarətin güclənməsi ilk növbədə Azərbaycan Yazıçılar İttifaqının (AYİ) *Azərbaycan* jurnalına, habelə *Ədəbiyyat və İncəsənət* qəzetinə partiya orqanlarının ciddi nəzarətindən başladı. Dərbənd teatrı ilə bağlı *Ədəbiyyat və incəsənət* qəzeti 15 avqust sayında 1959-cu ilin avqust ayının 1-də *Sovetskaya Kultura'*da gedən B. Şaxoviçin *Dərbənd Teatrını Bu Vəziyyətdən Qurtarmaq Lazımdır* adlı məqaləsini tərcümə edib dərc etdiyinə görə ciddi tənqidlərə məruz qalmışdı.[2] Məqalədə Dərbənd teatrının bərbad vəziyyətindən bəhs edilirdi. Orada yazılırdı: *"Dağıstan Mədəniyyət Nazirliyi dərbəndlilərin xahişlərin nəzərə alaraq ləzgi teatrının artistlərinə Azərbaycan dilində də tamaşalar*

---

[1]E. Axundova, *Heydər Əliyev: şəxsiyyət və zaman, I hissə,* 1923-1969, Bakı 2007, s.180-181
[2]Bax: *Ədəbiyyat və incəsənət*, 1959, 15 avqust.

*göstərməyi təklif etmişdi. Lakin bu təklifdən nə çıxdı? Həmin təklifdən Dərbənd teatrının kollektivinin 'O olmasın, bu olsun'" musiqili komediyasını tamaşaya qoydu. Dərbənd şəhər partiya komitəsi təbliğat-təşviqat şöbəsinin müdiri B. Mürsəlov həmin tamaşadan sonra qeyd etmişdi ki, aktyorlar Azərbaycan ədəbi dilini təhrif edirlər. Dərbənd şəhər Sovetinin sədri A.Həsənov da bu fikirdədir. Bir sözlə, Dərbənd teatrının göstərdiyi tamaşa nə Azərbaycan, nə də ləzgi dilində idi".*[3] Qəzetin həmin nömrəsini çapa imzalamış Əlfi Qasımov və şöbə müdiri Əkbər Ağayev dərhal Mərkəzi Komitəyə çağırıldılar. Onlar müzakirələr zamanı B. Şaxoviçin məqaləsini verməkdə haqlı olduqların bildirdilər. Lakin MK aparatında onlara bəzi həssas məqamlar izah edildi. Yazının aşağısındakı qeyddə qəzet Azərbaycan Mədəniyyət Nazirliyinə müraciət edirdi ki, Dağıstan Mədəniyyət Nazirliyi ilə birlikdə Muxtar Respublikanın ləzgi əhalisinə mədəni xidmətin yaxşılaşdırılması və Dərbənd şəhərində Azərbaycan əhalisi üçün teatrın açılmasına nail olsun. Redaksiyanın qeydində göstərilirdi: *«B. Şaxoviç yoldaşın 'Sovetskaya kultura' qəzetinin 1959-cü il 1 avqust tarixli nömrəsində çap olunmuş bu məqaləsi göstərir ki, Dərbənddəki ləzgi milli teatrı həm Dərbənddəki azərbaycanlıların, həm də ləzgilərin yaşadığı rayonlardakı tamaşaçıların mədəni ehtiyaclarını ödəmək üçün bir sıra çətinliklərlə qarşılaşmışdır. Vaxtilə Dərbənd şəhərində Azərbaycan dilində tamaşalar göstərən teatr olmuşdur. İndiki şəraitdə görünür Dərbənd teatrının nəzdində ləzgi dilində tamaşalar*

[3] Sovetskaya kul'tura 1959, 1 avgust.

*göstərən kollektivlə yanaşı, Azərbaycan dilində də aktyor kollektivinin yaradılması zəruridir. Redaksiyamız həmin məqaləni çap etməklə Azərbaycan SSR Mədəniyyət Nazirliyinin diqqətini bu məsələyə yönəldir və ümid edir ki, nazirlik yaxın gələcəkdə Dağıstan MSSR Mədəniyyət Nazirliyi ilə əlaqəyə girərək Dərbənd teatrının kollektivinə yaradıcılıq köməyi göstərəcək, eyni zamanda Dərbənddəki azərbaycanlılar üçün teatr təşkil olunmasına çalışacaqdır".*[4] Bu kiçik qeyd o qədər böyük qalmaqal yaratdı ki, məsələnin müzakirəsi Mərkəzi Komitənin Büro iclasına çıxarıldı. 1959-cu ilin avqust ayının 18-də MK Bürosu belə hesab edirdi ki, bu məsələ *Ədəbiyyat və incəsənət* qəzetinin səlahiyyətlərinə aid deyildir və redaksiyanın belə hərəkətləri Dağıstan MSSR-nın daxili işlərinə kobud müdaxilədir. Büro belə hesab edirdi ki, *"material seçilməsi ilə bağlı redaksiyanın məsuliyyətsizliyi nəticəsində buna bənzər təsadüfü və maraq kəsb etməyən yazılar qəzet səhəfələrində tez-tez yer alır. Azərbaycan Yazıçılar İttifaqı və Mədəniyyət nazirliyi 'Ədəbiyyat və incəsənət' qəzetinin redaksiyasına zəif rəhbərlik edir, redaksiyanın işinə yetərli dərəcədə nəzarət etmir"*. Bütün bunları nəzərə alaraq Büro 3 bənddən ibarət qərar qəbul etdi: 1. *Ədəbiyyat və incəsənət* qəzetinin səhifələrində kobud səhvə yol verdiyi üçün redaktor əvəzi Əlfi Qasımova şiddətli töhmət verilsin; 2. *Ədəbiyyat və incəsənət* qəzetinə zəif rəhbərlik etdikləri Azərbaycan Sovet Yazıçıları İttifaqının və respublika Mədəniyyət nazirliyinin nəzərinə çatdırılsın; 3. Azərbaycan Yazıçılar İttifaqına tapşırılsın ki, bu qərarın

---

[4] Ədəbiyyat və incəsənət, 1959, 15 avqust.

*Ədəbiyyat və incəsənət* qəzetinin redaksiya heyəti üzvlərinin və qəzetin əməkdaşlarının iclasında müzakirəsini təşkil etsin.[5]

Mərkəzi Komitənin Bürosunun qərarına uyğun olaraq AYİ 1959-cu ilin sentyabr ayının 9-da qəzetin məsələsini ittifaqın Rəyasət Heyətinin müzakirəsinə çıxardı. Azərbaycan KP MK-nın əməkdaşı Ziyadovun iştirakı ilə Mehdi Hüseyn *Ədəbiyyat və incəsənət* qəzeti haqqında Büronun qərarını oxudu. Qəzetin əməkdaşları və redaksiya heyətinin iştirakı ilə qərarın geniş müzakirəsi aparıldı. İlk söz alan qəzetin baş redaktoru Qasım Qasımzadə MK Bürosunun qərarının doğru olduğunu və redaksiyanın səhvə yol verdiyini etiraf etdi. Qəzetin tez-tez zəif yazılar verməsinə gəlincə o, qeyd etdi ki, *"müasir ədəbiyyat məsələlərinə dair ardıcıl olaraq tənqidi qeydlər verməkdə, yüksək nəzəri məqalələrlə çıxış etməkdə xeyli çətinliklərlə üzləşmişik. Təcrübəli və cavan tənqidçilərimizin çoxu müasir ədəbiyyatla məşğul olmaqdan bəzən açıqdan - açığa imtina edirlər. Mətbuat orqanlarımızın əksəriyyətində tənqidin səviyyəsi bu səbəbdən aşağıdır".*[6] Sonra Qasım Qasımzadə *Ədəbiyyat və incəsənət* qəzetinin qarşısında duran vəzifələr, nəşr planları, qəzetin rubrikaları, redaksiyanın üzləşdiyi çətinliklər haqqında bəzi məqamlara toxundu. Qəzetin həmin nömrəsini imzalamış redaktor müavini Əlfi Qasımov da qərarla razılaşdığını və qeyd edilən yazının rəhbərlik və redaksiya heyəti ilə müzakirə edilmədiyin dedi.

---

[5]*Ədəbiyyat və incəsənət* qəzeti redaksiyasının kobud səhvi haqqında Azərbaycan KP MK Bürosunun qərarı. 18.08.1958.Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f.1, s.46, i.97, v.172.
[6]AYİ Rəyasət Heyətin iclasının protokolu, 09.09.1959. Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi (ARDƏİA), f.340, s.1, i.659, v. 45-46.

O, bəzi redaksiya heyəti üzvlərinin qəzetlə əlaqəsini itirdiyini, onların bir neçəsinin redaksiyadan olmasını və qəzet əməkdaşların iş şəraitinin yaxşılaşdırılmasın təklif etdi.[7] MK Bürosunun qərarı ilə bağlı müzakirələrdə Süleyman Rəhimov, Əbülhəsən, Mirzə İbrahimov, Məmməd Rahim, İlyas Əfəndiyev, MK-nın məsul işçisi M. Ziyadov və digərləri çıxış etdilər. Müzakirələrə yekun vuran Mehdi Hüseyn qeyd etdi ki, *"qəzet siyasi səhv buraxıb. Biz özümüzə düşmən qazana bilmərik. Qəzetin üzünü həyata döndərməliyik"*.[8] Müzakirələr nəticəsində qərara alındı ki, *Ədəbiyyat və incəsənət* qəzetinin redaksiya heyətini möhkəmləndirmək məqsədi ilə redkollegiyanın yeni tərkibi yaradılsın; Qəzetin işini yaxşılaşdırmaq üçün əməli təkliflər hazırlanması Mirzə İbrahimov, Qılman Musayev və Bayram Bayramova tapşırılsın. Bu müzakirələrin nəticəsi kimi az sonra Azərbaycan KP MK Bürosu *Ədəbiyyat və incəsənət* qəzeti və *Azərbaycan* jurnalının ştatlarının artırılması haqqında qərar qəbul etdi. Qərarda respublika Nazirlər Sovetinə tapşırılırdı ki, Yazıçılar İttifaqının müraciətini nəzərə alaraq, İttifaqın nəşr orqanlarının ştat vahidlərinin artırılması məsələsini müsbət həll etsin.[9] Eyni zamanda həmin iclasda İttifaqın filialları ilə bağlı bəzi dəyişikliklər edildi. SSRİ Yazıçılar İttifaqının 1959-cu ilin may ayında keçirilmiş üçüncü qurultayında İttifaqın

---

[7] Yenə orada, v.50-51.
[8] Yenə orada, v.60.
[9] *Azərbaycan* jurnalı və *Ədəbiyyat və incəsənət* qəzetinin ştat vahidlərinin artırılması haqqında Azərbaycan KP MK Bürosunun qərarı. 20.10.1959. ARPİİSSA, f.1, s.46, i.109, v.236.

nizamnaməsinə edilmiş dəyişikliklərə uyğun olaraq Azərbaycan Yazıçılar İttifaqının İdarə Heyəti Naxçıvan və Dağlıq Qarabağ filiallarını şöbəyə çevrilməsi haqqında qərar verdi.[10]

50-ci illərin sonlarından başlayaraq yazıçı və şairlər, ədəbiyyatşünaslar arasında baş verən münaqişələrdən tez-tez Mehdi Hüseynə qarşı istifadə cəhdləri olurdu. Mehdi Hüseyn də öz növbəsində əleyhdarlarını zərərsizləşdirmək üçün bəzən belə vəziyyətdən yararlanmağa çalışırdı. Belə hadisələrdən biri 1959-cu ilin yanvar ayının 12-də Yazıçılar İttifaqının katibi Nəbi Babayevlə (Xəzri) tənqidçi Əhəd Hüseynov arasında baş versə də onun müzakirəsi ilin sonuna qədər davam etmişdi. Şair Əli Kərim *Azərbaycan* jurnalında çıxan məqaləsinə görə *İnturist* mehmanxanasında qonaqlıq mərasimi təşkil etmiş və orada Yazıçılar İttifaqının katiblərindən Nəbi Babayev, İlyas Əfəndiyev, yazıçılardan Əli Vəliyev, Bayram Bayramov, tənqidçi Əhəd Hüseynov iştirak etmişdi. Lakin mərasimin gedişində Nəbi Babayevlə Əhəd Hüseynov arasında yaranan mübahisə sonuncunun təhqir olunması ilə nəticələnmişdi. Əhəd Hüseynov Mərkəzi Komitəyə ərizə yazaraq müqəssirlər haqqında tədbir görülməsin xahiş etmişdi. Məsələ MK Bürosuna qədər gedib çıxmış, lakin Büro qərar verməzdən əvvəl məsələnin Yazıçılar İttifaqının İdarə Heyətində və İttifaqın partiya qrupunda müzakirəsini məqsədəuyğun hesab etmişdi. 1959-cu ilin iyun ayının 17-də Yazıçılar İttifaqının partiya

---

[10] Mehdi Hüseynin Vəli Axundova məktubu. 10.10.1959. ARPİİSSA, f.1, s.46, i.109, v.234-235.

bürosunda qonaqlıqda iştirak etmiş bütün şəxslərin məsələsi müzakirə edilmiş və *Azərbaycan* jurnalına əsərlər verən müəlliflərin ara bir qonaqlıq verməsi və İttifaqın işçilərin bu qonaqlıqlarda iştirakı pislənilmişdi.[11] Eyni zamanda, partiya bürosunun iclasında qonaqlıq mərasimində iştirak edən İttifaqın katibləri İlyas Əfəndiyev və Nəbi Babayev ciddi şəkildə tənqid edilmiş, Nizami rayon partiya komitəsində Armik Karamyan onların hərəkətini pisləmiş və onlar MK katibliyinə, habelə Təbliğat və Təşviqat Şöbəsinin müdiri Şıxəli Qurbanovun yanına çağırılıb məzəmmət edilmişdi. MK katibliyində məsələ bitmiş hesab edilsə də, lakin İttifaq daxilində bəzi şəxslər onun uzanmasında maraqlı olmuşdu. Ona görə, respublikada yeni rəhbərlik işə başladıqdan az sonra birinci katib Vəli Axundov Yazıçılar İttifaqının rəhbərliyini qəbul etmiş və 7 saat Yazıçılar İttifaqındakı vəziyyəti müzakirə etmişdi. İdarə Heyətinin üzvləri bu məsələnin müzakirəsinə cəhd etsələr də Mehdi Hüseyn belə hesab etmişdi ki, birinci katiblə yaradıcılıq məsələlərini müzakirə etmək lazımdır, qalan məsələləri İttifaqın plenumunda danışıb bir qərara gələrik. Ona görə də, bu məsələ ilə bağlı 1959-cu ilin oktyabrın ayının 14-də Yazıçılar İttifaqında yeni müzakirələr başlamış və MK katibi Abdulla Bayramov da iclasa gəlmişdi. O, məsələ haqqında məlumat verdikdən sonra dedi ki, az-çox sanballı əsərlərin çapından sonra bir qrup yoldaşların müəllif hesabına qonaqlığa dəvət edilməsi MK-dakı araşdırmalar zamanı müəyyən edilmiş və

[11] Azərbaycan Yazıçılar İttifaqı Rəyasət Heyəti partiya qrupunun iclası. 14.10.1959.ARDƏİA, f.340, s.1, i.660, v. 4.

*"Mərkəzi Komitə Büro iclasında qərar çıxarmış, öz qərarında mövcud olan belə zərərli praktikanı pisləmişdir".*[12] Məsələnin müzakirəsində ilk söz alan Əli Vəliyev qeyd etdi ki, *"ağıllı rəhbərimiz və uzağı görən idarə başçımız olsaydı, mənə elə gəlir ki, bu məsələ on ay uzanmazdı"*. Əli Vəliyev belə hesab edirdi ki, məsələnin uzanmasında Mehdi Hüseyn maraqlıdır və partiya orqanları da məsələyə birtərəfli yanaşır. O, deyirdi: *"Şıxəli Qurbanov özünü bir partiya işçisi kimi aparmır. O, yazıçıları heç saymır, bəzilərinin sözünü kəsir...Bu işin bu yerə çatmasının səbəbi birinci növbədə Mehdidir. Obraz ilə demək lazımdır. Əgər yanğına su töküb onu söndürmək lazım gəlirsə, Mehdi daha da küləş qoyur, otu qızışdırır...Şıxəli Qurbanov bu işlə məşğul olmuş, onun məqsədi Nəbi Babayevi müdafiə etmək olmuşdur".* Vəli Axundovla Yazıçılar İttifaqı İdarə Heyətinin görüşünə toxunan Əli Vəliyev qeyd etdi ki, görüş zamanı *"yoldaş Mehdiyə axırda söz verildi, o, qılıncını sıyırıb Süleymanın üstünə düşdü. Ona çox söz verilsəydi, bəlkə hamısının üstünə düşərdi...Yoldaş Vəli Axundov bizə yaxşı ağıllı sözlər dedi. O, dedi ki, Sizin ilə söhbət etdim, Sizi yaxşı tanıdım. Yaxşı tanıdım sözləri Mehdiyə aid idi. Yəni birinci növbədə o, Mehdini yaxşı tanıdı. Mehdi bu iclasları gündən-günə süründürür...O, dedi ki, mən özüm Mərkəzi Komitə ilə səhər danışaram. Səhər də Mərkəzi Komitə onun üçün Şıxəli Qurbanov olur. Halbuki, Mərkəzi Komitə tək Şıxəli Qurbanovdan ibarət deyildir. Mərkəzi Komitə plenumdur, bürodur...Biz hamımız kommunistik, dünən ortaya çıxmış bu adam (N.Babayevi nəzərdə tutur –*

---

[12] Yenə orada, v. 3.

*C.H.) gəlib bizim başımızda ağalıq edir. Çox axtarsan hu adamın keçmişi də qaranlıqdır. Mən bu məsələ haqda Mərkəzi Komitənin keçmiş katibi İmam Mustafayev və MK katibi Vəliyev yoldaşlara da demişəm. Nəbi Babayevi Mehdi Hüseynlə, Qurbanov Şıxəli yoldaşlar boynumuza mindirmişlər. Mehdi Hüseyn deyir ki, mənim bundan xəbərim yoxdur, Nəbi Babayevi boynumuza mindirən Şıxəli Qurbanovdur...Şıxəli Qurbanovun vasitəsilə Nəbi Babayev katib seçilmişdir". Əli Vəliyev çıxışının sonunda çox kəskin şəkildə Mehdi Hüseynin üstünə düşdü və qeyd etdi ki, qarşıdakı plenumda tək Nəbi Babayevin, İlyas Əfəndiyevi məsələsi yox, Yazıçılar İttifaqının rəhbərliyinin məsələsi qoyulmalıdır. Mehdi Hüseyn haqqında danışmalıyıq. Mənim fikrimcə o, özünü biabır etmişdir, hörmətdən salmışdır. Onun yazıçılar içərisində hörməti yoxdur. Buna görə əgər Sizin cəsarətiniz çatırsa ərizə verin, çıxın gedin. Cəsarətiniz çatmırsa, onu Yazıçılar İttifaqının rəhbərliyindən azad etmək lazımdır".*[13] Lakin MK katibi məsələnin belə qoyulmasına etiraz etdi və bildirdi ki, partiya rəhbərliyi Yazıçılar İttifaqının bu gün keçirilən plenumunda Nəbi Babayev və İlyas Əfəndiyevin məsələsinin qoyulmasın tövsiyə etmişdir, əgər sizin Mehdi haqqında təklifiniz varsa bunu ayrı bir tədbirdə irəli sürə bilərsiniz. A. Bayramov qeyd etdi ki, Nəbi Babayev və İlyas Əfəndiyevlə bağlı iki təklif var, ya onlar tənqid edilir və tənqiddən nəticə çıxardıqların etiraf edirlər, ya da bu yoldaşların heç biri Yazıçılar İttifaqının işində qala bilməzlər. Mehdi Hüseynlə bağlı o, acıqca bildirdi ki, bu məsələ onun

---

[13] Yenə orada, v.14-17.

səlahiyyətləri daxilində deyil və MK bu məsələ ilə bağlı ona hər hansı bir tapşırıq verməyib. A. Bayramov əlavə etdi ki, *"mən Mərkəzi Komitənin nümayəndəsi kimi bu məsələni müzakirə etməyə hazır deyiləm... Mərkəzi Komitənin fikri mənə məlum deyildir, Mehdinin işdən götürülməsi haqqında məsələni müzakirə etmək olar, yoxsa yox...Odur ki, bu məsələni mənim iştirakımla boynuma götürə bilmərəm. Əgər Yazıçılar İttifaqının rəhbərliyi yaramırsa, bir də yığışıb bunu müzakirə edə bilərik"*. Onun fikrincə bir saatdan sonra işə başlayacaq plenum, məhz Nəbi Babayev və İlyas Əfəndiyevin məsələsini müzakirə etməli idi.

Yazıçılar İttifaqı Rəyasət Heyətinin üzvü Bəxtiyar Vahabzadə Əli Vəliyevin təklifini müdafiə edərək replika verdi ki, *"biz bu gün plenum iclasında əsas rəhbərlik məsələsini müzakirə etməliyik"*.[14] Öz növbəsində Zeynal Xəlil və Bayram Bayramov bu təklifi müdafiə etdilər və plenum üzvlərinin məlumatsız olduğunu əsas gətirib iclasın təxirə salınmasın məqsədəuyğun hesab etdi. Lakin Mehdi Hüseyn məsələnin belə qoyuluşuna etiraz etdi. O, dedi: MK-nın qərarında *"qeyd edilmişdir ki, bu məsələni (N. Babayev və İ. Əfəndiyevin məsələsini – C.H.) plenumun iclasında müzakirə etmək lazımdır. Bunun heç bir məsələyə dəxili yoxdur. Qoy yoldaşlar bunu o biri məsələlərlə qarşıdırmasınlar. Mən burada danışılanlara cavab vermək istəmirəm. Mən istəyirəm ki, danışılanların səviyyəsindən yuxarıda durum. Ona görə xahiş edirəm MK-nın qərarında göstərilən məsələ burada*

[14] Yenə orada, v.18-19.

*müzakirə edilsin”.*[15] Süleyman Rəhimov söz alaraq rəhbərliyin məsələsinin müzakirəyə çıxarılmasının vacib olduğunu bildirdi. O, dedi: *“Heç kəsə ixtiyar verilməmişdir ki, seçki ilə seçilən bir adam məsələləri özbaşına həll etsin. Əgər belə olsa mən ikinci dəfə prezidiuma gəlmərəm. Çünki bizim vaxtımızda belə şeylər olmamışdır. Məsələ qoyulmalıdır və hər kəs öz fikrini deməlidir. Biz prezidiumda danışanda Mehdi Hüseyn deyir ki, belə danışmaq olmaz. Mənim 60 yaşım var, bunların hamısı MK-nın keçmiş katibi Mustafayevin apardığı əyri xəttin pis təsiri nəticəsindədir. Məsələn, Şıxəli Qurbanov bu yaxınlarda Yazıçılar İttifaqına gələrkən mənimlə əl verib görüşdükdən sonra məni qapıdan bayırda qoyub içəri keçdi. Nə üçün o, mənə təklif etməmiş içəri keçdi...Sonra burada Nəbi və İlyasın məsələsi qoyulmuşdur. Mənim fikrim odur ki, Mehdinin hərəkətlərinə baxaq. Çünki bunu da onlardan ayırmaq olmaz. Məsələni köklü şəkildə həll etmək lazımdır...Şıxəli Qurbanov cavan oğlandır. Biz heç vaxt onu tamamilə puç etməyin tərəfdarı deyilik. Lakin bu işlərdən sonra belə hərəkət etməyə heç kəsə ixtiyar verilmir. Məsələni həll etmək lazım gəldikdə o, görür ki, Süleyman buradadır, ona da deyin ki, gəl içəri, lakin ona demir. Burada nə sirr vardır ki, biz burada atom enerjisi məsələsini həll etmirik ki?”*[16] Yeri gəlmişkən bu müzakirələr ərəfəsində Mehdi Hüseyn Süleyman Rəhimovun 1960-cı ilin mart ayında tamam olacaq 60 illiyinin, Rəsul Rzanın isə həmin ilin may ayında tamam olacaq 50 illiyinin təntənəli şəkildə qeyd edilməsi

[15] Yenə orada, 20.
[16] Yenə orada, v.23-24.

haqqında Mərkəzi Komitəyə məktub yazmışdı. O, Vəli Axundova yazırdı ki, *"Azərbaycan Yazıçılar İttifaqının İdarə Heyəti bu yoldaşların yubileyni keçirməyi və yüksək dövlət mükafatına (orden almağa) təqdim olunmalarına icazə vermənizi xahiş edir"*.[17] Mərkəzi Komitə Bürosunda bu məsələ müzakirə edilib hər iki yubiley tədbirinin keçirilməsi üçün Yazıçılar İttifaqına icazə verildi. Büro qərarının ikinci bəndində göstərilirdi ki, *"Azərbaycan sovet ədəbiyyatının inkişafında xidmətlərini və anadan olmasının 50 illiyini nəzərə alaraq şair Rzayev Rəsul İbrahim oğlunun Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi barədə Sov.İKP MK qarşısında vəsatət qaldırılsın"*.[18]

14 oktyabr toplantısında söz alan Mir Cəlal Paşayev İttifaqın bütün katiblərinin məsələsinin müzakirəyə çıxarılması təklifi ilə razılaşmadı və qeyd etdi ki, əgər biz MK-nın müəyyən konkret məsələ haqqında qərarını müzakirə etməsək, buna ayrı məsələni qatıb həll etsək, bu etika cəhətdən düzgün hesab edilməz. *Azərbaycan* jurnalının baş redaktoru Əbülhəsən onu müdafiə edib dedi ki, *"keçən dəfə yoldaş Axundovun yanında olduq, bizə göstəriş verildi ki, yoldaşlar rayonlarda işləsinlər. İndi bu məsələni uzatmaq və iclasda iki təşkilati məsələni qoymağı təsəvvürümə gətirə bilmirəm"*. İttifaqın Rəyasət Heyətinin üzvü Rəsul Rza da Mehdi Hüseynin məsələsinin gündəliyə salınmasının əleyhinə olub dedi ki, bu gün ancaq iki

[17] Mehdi Hüseynin Axundova məktubu. 02.10.1959. ARPİİSSA, f.1, s.46, i.109, v.229.

[18] Azərbaycan Sovet Yazıçılar İttifaqının məsələsi haqqında Azərbaycan KP MK Bürosunun qərarı. 20.10.1959.ARPİİSSA, f.1, s.46, i.109, v.225.

katibin – Nəbi Babayevin və İlyas Əfəndiyevin məsələsini həll etmək lazımdır. O, Vəli Axundovla görüşdə də öz fikrini bəyan etdiyini vurğuladı və əlavə etdi ki, plenumda söhbət yalnız məlum qonaqlıq haqqında deyil, ötən müddət ərzində necə işləməyimiz, Azərbaycan ədəbiyyatı və incəsənəti dekadasında özümüzü necə göstərməyimiz barədə, yaradıcılıq məsələləri haqqında olmalıdır. İclasa sədrlik edən Abdulla Bayramov bir daha xəbərdarlıq etdi ki, Mərkəzi Komitənin qərarında Yazıçılar İttifaqının ikinci və üçüncü katibi Nəbi Babayev və İlyas Əfəndiyevin 10 ay bundan əvvəlki hadisə ilə bağlı məsələləri qoyulmuş, lakin orada göstərilməmişdir ki, onlar katib vəzifəsində qalsınlar, ya qalmasınlardur. Onun fikrincə, bunu Yazıçılar İttifaqının Rəyasət Heyəti və plenumu həll etməli idi. Yenidən söz alan Süleyman Rəhimov dedi ki, "cavan adamları azad edək getsinlər". *Ədəbiyyat və incəsənət* qəzetinin problemlərindən söz açan baş redaktor Qasım Qasımzadə bildirdi ki, *"Mehdi yoldaş hamını öz iradəsinə tabe etmək istəyir. Sonra söz alan Bəxtiyar Vahabzadə 10 ay əvvələ qayıdaraq dedi ki, 'Nəbi Babayevlə İlyas Əfəndiyevin hadisə zamanı yerliçilik üstündə davaları düşmüşdür. O, öz çıxışında Mehdi Hüseyni nəzərdə tutaraq bildirdi ki, bəsdir qağaçılıqdan əl çəkin. Ona görə ki, Mehdi Hüseyn yerlisinə başqa cür baxır, başqa yoldaşlara isə münasibəti ban-başqadır. Odur ki, bu məsələni həll etməliyik. Mehdi Hüseyni ittiham edirlər ki, bəsdir qağaçılıqdan əl çəkmək lazımdır".*[19] Mehdi Məmmədov Yazıçılar

[19] Azərbaycan Yazıçılar İttifaqı Rəyasət Heyəti partiya qrupunun iclası, 14.10.1959.ARDƏİA, f.340, s.1, i.660, v. 39-40.

İttifaqının rəhbərliyi haqqında məsələnin inturistdə baş vermiş hadisə fonunda müzakirə edilməsinin doğru olmadığın bildirdi, O, dedi ki, *"bu gün ayrı-ayrı yoldaşların çıxışlarından və ümumiyyətlə son vaxtlarda Yazıçılar İttifaqında hiss olunan vəziyyətdən məlum olan odur ki, Yazıçılar İttifaqının rəhbərliyi ilə yazıçı kütləsi arasında müəyyən ziddiyyətlər vardır. Simptom görünür. Nə dərəcədə həqiqətə uyğundur, ya uyğun deyil. Geniş müzakirə zamanı ortalığa çıxar. Lakin əlamətlər özü-özlüyündə məsələnin müzakirə edilməsin tələb edir. Məncə Mehdi Hüseyn yoldaş heç bir vaxt Yazıçılar İttifaqının katibliyi vəzifəsini, qətiyyən bir partiyaçı və yazıçı mənafeyindən üstün tutan yoldaş deyildir. Özü məsələnin tezliklə həllinin tərəfdarı olmalıdır".*[20] Həmin gün plenum keçirməyin əleyhinə olanlar çoxluq təşkil etdiyi üçün MK katibi Abdulla Bayramov onlarla razılaşmalı oldu. Plenum çağırılması oktyabr ayının 16-sı saat 12-yə təyin edildi. Plenum çox gərgin qarşıdurmalar şəraitində keçsə də, İttifaqın katiblərinin ünvanına ciddi tənqidi çıxışlar olsa da, Mehdi Hüseynin təkidi ilə Nəbi Babayevlə İlyas Əfəndiyev vəzifələrində saxlanıldılar. Lakin Mehdi Hüseynin ünvanına deyilən bir sıra ağır tənqidi mülahizələr, bəzi məqamlarda təhqiramiz ifadələr izsiz keçmədi. O, plenumdan az sonra, 1959-cu ilin noyabr ayının 2-də Azərbaycan KP MK-nın birinci katibi Vəli Axundova ərizə yazaraq İttifaqın birinci katibi vəzifəsindən azad olunmasın xahiş edirdi. Öz müraciətində Mehdi Hüseyn yazırdı: "*Azərbaycan Sovet Yazıçıları İttifaqında yaranmış ağır və dözülməz vəziyyətdə işləmək*

[20] Yenə orada, v.37.

*mümkün olmadığından, səhhətimin pozulduğunu nəzərə alaraq, məni vəzifədən azad etmənizi xahiş edirəm".*[21] Axundov onun ərizəsini müzakirə etmək üçün Azərbaycan KP MK Bürosuna göndərdi. 1959-cu ilin dekabr ayının 1-də MK Bürosu məsələni müzakirə edib Mehdi Hüseynin indiki vaxtda Azərbaycan Yazıçılar İttifaqının birinci katibi vəzifəsindən azad edilməsin məqsədəuyğun hesab etmədi.[22]

MK Bürosunun bu qərarından sonra Yazıçılar İttifaqının rəhbərliyi öz gündəlik işinə davam etdi. İttifaqın qarşısında duran başlıca vəzifələrdən biri SSRİ Yazıçılar İttifaqının 1959-cu ilin mayı ayında keçirilmiş III qurultayında Nikitə Xruşşovun sistemsiz nitqindən irəli gələn vəzifələri yerinə yetirməkdən ibarət idi. Xruşşov həmin nitqində gənclik illərində tanıdığı şaxtaçı fəhlə Panteley Maxinya adlı həvəskar bir şairin əyalət mətbuatı olan *Prikubanskie stepi* jurnalında dərc olunmuş ortabab bir şerin Sovet yazıçılarına ədəbi nümunə kimi təqdim edirdi. Bu nitqində Nikita Xruşşov şəxsiyyətə pərəstişin ifşa olunmasın partiyanın başlıca ideoloji xətti kimi sovet yazıçılarının qarşısında qoyurdu. O, ədəbi *bəzəkçilər* kimi tanınan, kommunizmin təntənəsini təbliğ edən bir sıra yazıçıların XX qurultaydan sonra *peyda* olmuş tənqidçilər tərəfindən ləkələnməsin yolverilməz hesab edirdi. Xruşşov deyirdi: *"bəzəkçilər vardırsa, onda yəqin bəzəkçi olmayanlar da vardır. Bəs bəzəkçi olmayanlar kimlərdir?*

[21] Mehdi Hüseynin Vəli Axundova ərizəsi. 02.11.1959. ARPİİSSA, f.1, s.46, i.122, v.195.
[22] Mehdi Hüseynin ərizəsi ilə bağlı Azərbaycan KP MK Bürosunun qərar. 01.12.1952. ARPİİSSA, f.1, s.46, i.122, v.191.

*Onların bəziləri deyirlər ki, ədəbiyyatın başlıca vəzifəsi hər cür qüsur və nöqsanları tapıb üzə çıxarmaqdan ibarətdir, bununla da onlar sovet cəmiyyətinin böyük nailiyyətlərinə göz yumurlar. Bilin ki, əziz dostlar, nöqsanları və qüsurları tapıb üzə çıxarıb ifşa edən, heç də u zaman əli əsməyən varsa, o da partiyadır, onun Mərkəzi Komitəsidir".*[23] *Yeniyetmə yaşlarında mülkədarın ilxısını otarıb mehtərliklər əmək fəaliyyətinə başlayan Nikita Sergeyeviç Sovet ədəbi elitası qarşısında cəmiyyətdə mənfilik axtarışına çıxanlara üzünü tutub deyirdi ki, "mənfilik yabısında nəinki bataqlıqdan çıxa bilməzsən, həm də yaxşı yolla da uzağa gedə bilməzsən".* Xruşşov əvvəllər olduğu kimi qurultaydakı nitqində yenidən Vladimir Dudintsevin *"Yalnız çörəklə deyil"* əsəri haqqında kəskin tənqidi fikirlər söylədi. O, hesab edirdi ki, Dudintsev mənfi halları ustalıqla seçmişdir, lakin bunları şişirdilmiş, qərəzli ümumiləşdirmiş şəkildə təsvir etmişdir. Lakin əvvəlki tənqidi fikirlərdən fərqli olaraq Xruşşov bu nitqində artıq Dudintsevi düşmən, sovet quruluşunun əleyhdarı hesab etmirdi.

Qarğıdalının cazibəsinə düşəndən sonra Nikita Xruşşov bütün bənzətmələrin və misalların onun üzərində qurmağa çalışırdı. Yazıçılar ittifaqının qurultayındakı nitqində də o, gənc yazıçı və şairləri şitillikdə yetişdirilən sütül qarğıdalıya bənzədirdi. Xruşşov deyirdi: *"Qarğıdalını sevənlər çoxdur: onu gürcülər, ermənilər, Cənub vilayətlərində yaşayan ruslar sevirlər. Sütül qarğıdalı xüsusilə ləzzətlidir. Onu yeməyənlər qarğıdalının nə qədər dadlı olduğunu bilmirlər. Deməliyəm ki, qarğıdalı*

---

[23] Ədəbiyyat və incəsənət, 1959, 30 may.

*yetişdiriləndə təcrübəli olmayan, lakin onun daha tez yetişməsin arzu*[24] *edən adamlar isti şitilliklərdə qarğıdalı şitili yetişdirməyə balamışdılar. Şitillikdən çıxarılıb basdırılmış qarğıdalı bitkilər...cılızdır, sarıdır, bunlarda bitki yaşıllığı yoxdur, bu bitkilərin rəngi başına çətir tutmuş adının üzündə əmələ gələn qızartıya oxşayır. Əlbəttə, belə bitki öz inkişafında rast gəldiyi bütün çətinliklərə tab gətirə bilməz. Bizim yeni başlayan yazıçılarımız da torpaqda əkilməzdən əvvəl isti şitillikdə cücərdilən qarğıdalıya müəyyən dərəcədə oxşayırdı. Bəzən belə olur: ilk hekayə və ya şer yazan adam haqqında dərhal hay-küy salmağa başlayıb deyirlər ki, yeni parlayan ulduz, yeni istedad meydana gəlmişdir. İlk əsər yazmış olan bu yoldaş özünü yazıçı və ya şair adlandırmadığı halda, o yalnız öz bacarığını sınadığı halda onun haqqında hay-küy qoparıb deyirlər ki, bu adamın tayı-bərabəri yoxdur, bəşəriyyətin ümidlə gözlədiyi adamdır, onu Yazıçılar İttifaqına çəkib gətirirlər. Yeni başlayan belə adam rayonda yaşayırsa, deyirlər ona Moskvada, yaxud respublikanın paytaxtında mənzil verilməlidir. Deyirlər o, yeni parlaq ulduzdur, onun rayonda qalmasına razı olmaq olarmı? Məgər bu düzgün münasibətdir? Mixail Aleksandroviç Şoloxov ki, öz paytaxtında – Veşenskaya stansiyasında yaşayır, indi, ay paytaxtlılar, onunla ədiblik aləmində bəhsə girin".*[25] Nikita Xruşşov sovet yazıçılarından nə istəyirdi? Onun fikrincə, *"insan anadangəlmə kommunizm adamı olmur...o kommunizm cəmiyyəti*

[24] Yenə orada.
[25] Yenə orada.

*qurmaq prosesində, sosializmdən kommunizmə keçid dövrünün başa çatdırılması prosesində"* yaranacaqdı. Məhz, bu keçid prosesində üfüqdə görünən yeni kommunizm adamının nümunəvi bədi obrazını Nikita Xruşşov kommunizmin özündən öncə sovet ədəbiyyatında görmək istəyirdi. Qurultayın Sov.İKP MK-ya göndərdiyi məktub Nikita Xruşşov haqqında tərifli söz yığınından ibarət idi. Orada partiyanı əmin edilirdi ki, sovet yazıçıları yeni cəmiyyət yaradılmasına, yeni insan tərbiyə edib yetişdirilməsinə öz töhfəsini verəcəkdir.

Sovet yazıçılarının böyük bir hissəsi kimi Azərbaycan yazıçıları da uzun müddət Nikita Xruşşovun qurultaydakı pafoslu nitqinin *"cazibəsi"* altında oldular. Respublikanın ədəbi orqanlarında bu nitqin *"yüksək siyasi və ədəbi məziyyətləri"* haqqında çoxlu tərifli yazılar çıxdı. Azərbaycan yazıçıları adından qurultayda İttifaqın sədri Mehdi Hüseyn çıxış etdi. O, məzmunca sosialist olan sovet ədəbiyyatının bir sıra milli məqamlarına toxundu, Azərbaycan ədəbiyyatının Səməd Vurğun, Cəfər Cabbarlı kimi nümayəndələrinin yaradıcılığında bəzi məqamlara toxundu, SSRİ Yazıçılar İttifaqının mətbuat orqanlarının milli ədəbiyyatlara yetərincə diqqət yetirmədiyi vurğuladı. Mehdi Hüseyn yazıçıların başlıca vəzifəsini kommunizm quruculuğunu duymaqda, onu yaxınlaşdırmaqda görürdü. O, dedi: *"Hazırda ədəbiyyatın qarşısında duran möhtəşəm vəzifə geniş kommunizm quruculuğunun böyük proqramını həyata keçirən müasirlərimizin, sovet adamlarının qəhrəmancasına yüksəlişini bütün dolğunluğu və əzəməti ilə təsvir etməkdən ibarətdir...Kommunizm*

*quruculuğu işi müasirlərimizin ən yaxın, real və parlaq işidir”.*[26] Mehdi Hüseyn Cənubi Azərbaycan yazıçılarının qurultaya təbrikini oxudu və çıxışının sonunda dedi: *“Əminəm ki, qurultayımız qardaş ədəbiyyatların qarşısında duran problemlərin nəzəri və əməli surətdə həllində lazımi tədbirlər görəcəkdir. Qoy bizim kitablarımız həyat poeziyasını, böyük dəyişikliklər poeziyasını, kommunizmə doğru qalib yürüşümüzün poeziyasını əks etdirsin”.*[27]

Qurultaydan dönəndən az sonra, respublika rəhbərliyində dəyişiklik olduğu üçün Azərbaycan yazıçıları qurultayın yekunlarını bir qədər gec, İttifaqın 1959-cu ilin oktyabr ayında keçirilən plenumunda müzakirə etdi. Plenumda Yazıçılar İttifaqının katibi İlyas Əfəndiyev geniş məruzə etdi. O, qeyd etdi ki, sovet yazıçıların üçüncü qurultayındakı nitqində Nikita Xruşşov *“biz yazıçıları ‘ağır artilleriya’ adlandırdı”.* Sonra İ. Əfəndiyev bu *“ağır artilleriyanın”* Azərbaycandakı təmsilçilərinin bəzi top atəşlərinə diqqəti çəkdi, son illərdə yazılmış *Tamaşa qarının nəvələri* (Əbülhəsən), *Mən ki, gözəl deyildim* (Bayram Bayramov), *Telefonçu qız* (Həsən Seyidbəyli) povestlərinin, *Xəzər sularında* (Məmməd Rahim) poemasının kommunizm quran qəhrəmanlarından yüksək pafosla bəhs etdi. Lakin o, İsa Hüseynovun *Doğma və yad adamlar* romanının qəhrəmanlarının kommunizm quruculuğu ilə ayaqlaşmadığın çox sərt formada tənqid etdi. İ. Əfəndiyev dedi: “*Biz həyatımızın nöqsanlı cəhətlərindən danışarkən bəzən*

[26] Ədəbiyyat və incəsənət, 1959, 6 iyun.
[27] Yenə orada.

*mövcud quruluşumuz üçün heç də xarakterik olmayan mənfiliklər tapıb çıxarırıq. Bəzən də lap uydururuq. Bu cəhətdən İsa Hüseynov yoldaşın 1959-cu ildə çap etdirdiyi 'Doğma və yad adamlar' əsəri çox haqlı olaraq kəskin tənqidə məruz qaldı. Doğrudan da, müəllifin roman həsr etdiyi bu canbalayevlər, bəkirlər haradan peyda olmuşlar? Onlar, bu gün kommunizm işi uğrunda fədakarlıqla, ləyaqətlə vuruşan, həmişə ön atəş xəttində dayanan, dünyada ən sağlam ruhlu, ən yüksək ideyalı ədəbiyyat yaradan sovet yazıçıları üçün nə dərəcədə səciyyəvidirlər? Dünya ədəbiyyatında xudpəsənd yazıçı surətləri təsvir olunmuşdur. Lakin yazıçını, həm də bizim sosializm şəraitində yetişən yazıçını bu cür bir fırıldaqçı kimi, bu cür xırda xəbis kimi qələmə vermək cəhdi harada görünmüşdür? Və bu nə üçündür? Əgər bədii əsərdə yazıçıdan danışmaq lazımdırsa, nə üçün bizim xəyalımıza, birinci növbədə, xalqımızla birlikdə kommunizm quran, qızmar günəş altında, şaxtada, boranda, dənizin qorxulu dalğaları arasında öz qəhrəmanları ilə bir yerdə olan, onlarla birlikdə sevinən, kədərlənən yoldaşlarımız gəlmir? Nə üçün Böyük Vətən müharibəsində qəhrəman ordumuzla birlikdə hücuma keçən, döşünü güllə qabağına verən qardaşlarımızım əziz xatirəsi gəlmir?...Nə üçün yaxşı yazmağı bacaran bəkirlər həyatda düzgün, namuslu yol tuta bilmirlər? Digər tərəfdən nə üçün kənd şəhərə qarşı qoyulur? Az qala bir əsr geridə qalmış bu patriarxal hiss haradandır? Hansı ictimai sarsıntının məhsuludur? Keçmiş ağa balaları kimi şəhərdə darıxaraq kəndin idilliyasına qapılan bu gənc oğlan hansı planetdən gəmişdir? Onu hansı mühit yetişdirmişdir?"* İ.

Əfəndiyev bu məruzəsində yazıçının borcunu xalqın *"böyük idealına, onun kommunizm quruculuğuna kömək"* etməkdə, *"yeddiillik kimi əzəmətli bir proqramı həyata keçirməyə"* yardımçı olmaqda görürdü. O, Süleyman Rəhimovun *Ağbulaq dağlarında* romanı barədə də bəzi tənqidi mülahizələr söylədi. Lakin bu tənqidi mülahizə əsərin ideya istiqaməti ilə bağlı olmayıb, onun ekspozisiyasının xeyli uzun olması ilə bağlı idi. Sonda İ. Əfəndiyev ədəbi tənqidlə bağlı bəzi məsələlərə toxundu, Məmməd Arif, Məmməd Cəfər Cəfərov, Əkbər Ağayev, Abbas Zamanov, Orucəli Həsənov, Mehdi Məmmədov kimi tanınmış tənqidçilərlə yanaşı, daha sonrakı nəslin nümayəndələri kimi Məsud Vəliyevin, Pənah Xəlilovun, Kamal Talıbzadənin, Əziz Mirəhmədovun, İslam İbrahimovun, Əhəd Hüseynovun, Qulu Xəlilovun, Yəhya Seyidovun, Kamran Məmmədovun, Əlfi Qasımovun, Bəkir Nəbiyevin, Ağamusa Axundovun adını çəkdi. Lakin o, qeyd etdi ki, bütün bunlara baxmayaraq *"ədəbi tənqidimiz ədəbiyyatımızın inkişafı ilə ayaqlaşmır. Bədii əsəri vaxtında, dərindən təhlil edən, yazıçıya əsaslı surətdə kömək göstərə bilən tənqidi məqalələr az yazılır. Bəzən nəzəri səhvlərə yol verilir".*[28] Plenumda çıxış edən Süleyman Rəhimov Yazıçılar İttifaqında olan nöqsanlardan danışdı və bildirdi ki, *"bəzən bu və ya digər yazıçının qiyməti yazdığı əsərə görə deyil, onun şəxsiyyəti ilə ölçülür. Əgər müəllifə qarşı münasibət yaxşıdırsa, onun əsəri də yaxşı bir əsər kimi qələmə verilir. Yaxud, əksinə, müəllifə qarşı münasibət pisdirsə, onun yaxşı əsəri də tənqidlə qarşılanır".* O, buna misal

[28] Ədəbiyyat və incəsənət, 1959, 31 oktyabr.

kimi yazıçı İlyas Əfəndiyevin *"Atayevlər ailəsi"* dramını misal gətirib dedi ki, "Azərbaycan Dövlət Dram Teatrında İlyas Əfəndiyevin *"Atayevlər ailəsi"* tamaşaya qoyulandan bir qədər sonra yavaşca səhnədən götürüldü. Mövzusu və yazılışı etibarı ilə çox aktual bir əsər olan *"Atayevlər ailəsi"*nin səhnədən götürülməsi müəyyən dərəcədə şəxsi münasibətlərlə əlaqədar olmuşdur. Plenumda çıxış edən gənc tənqidçi Qulu Xəlilov bildirdi ki, tutduqları mövqe və vəzifə görə özlərini tənqiddən kənarda saxlayan yazıçılar vardır. O, bir sıra yazıçıların tənqiddən inciməsini də qüsurlu hal kimi qiymətləndirdi və Manaf Süleymanovun *"Fırtına"* əsəri haqqında yazdığı kəskin tənqidi yazının müəllif tərəfindən etirazla qarşılanmasın sağalam münasibət hesab etmədi. Qulu Xəlilov yalnız tənqidi yazılardan deyil, müsbət məzmunda yazılan bəzi yazılarında qısqanclıqla qarşılandığına toxundu və buna misal olaraq Rəsul Rzanın şerləri haqqında yazdığı məqalənin bir ilə yaxındır *"Azərbaycan"* jurnalı redaksiyasında *"batıb qalmasından"* narazılıq etdi. Az sonra, 1959-cu ilin noyabr ayının 21-də *"Ədəbiyyat və incəsənət"* qəzeti onun Rəsul Rzanın həmin ilin əvvəllərində *"Azərbaycan"* jurnalında nəşr edilmiş siyasi mövzudakı şerləri haqqında "Siyasi lirikanın nümunələri" adlı məqaləsini çap etdi.[29] Mirzə İbrahimov gənc tənqidçi Qulu Xəlilovu əsasən doğru və obyektiv düşünən tənqidçi adlandırsa da, əlavə etdi ki, *"o, bəzən öz ehtiraslarına həddindən çox aludəçilik göstərir və bədii əsər onu narazı salanda, öz qəzəbini elə bir şəkildə ifadə edir ki, bu, yazıçıya əks təsir*

---

[29] Bax: Ədəbiyyat və incəsənət, 1959, 21 noyabr.

*bağışlayır”*. Fikrinə nümunə kimi Mirzə İbrahimov Qulu Xəlilovun Manaf Süleymanovun əsəri haqqında yazdığı məqaləni misal gətirdi.[30] Əvvəllər olduğu kimi Məmməd Rahim plenumdakı çıxışını da əsasən Mehdi Hüseynin tənqidi üzərində qurdu. O, dedi ki, Yazıçılar İttifaqı “İdarə Heyətinin mükəmməl iş planı yoxdur. Bizim yaradıcılıq və təşkilat işlərimizdə elə bir vəziyyət əmələ gəlmişdir ki, bəzən şəxsi münasibətlər ön plana keçir. Rəhbərliyin bir yazıçıdan xoşu gəlməyəndə, onu ədəbiyyatdan uzaqlaşdırır və xoşu gələnləri isə ədəbiyyata yaxınlaşdırırıq. Ədəbiyyatımızın gələcək inkişafı naminə belə hallar aradan qaldırılmalıdır. İşimizə mane olanlar, su bulandıranlar, təşkilatımızın rəhbərlərinin ətrafında fırlanan dedi-qoduçu *müşavirlər* birdəfəlik susdurulmalı və ədəbiyyatımızın bütün qüvvələrinin səmərəli işləməsi üçün şərait yaradılmalıdır. Rəhbərlikdə olan yoldaşlardan bəzilərinin, deyək ki, Mehdi Hüseynin, şəxsən məndən xoşu gəlməyə, mənim də ondan xoşum gəlməyə bilər, ancaq ədəbiyyatımızın ümumi inkişafı naminə mən təşkilatda onunla birlikdə işləməliyəm, onun şer bölməsinin işi haqqında ağıllı bir məsləhəti olarsa, mən ona qulaq asmalıyam. Mehdi Hüseyn də kollektivlə hesablaşmalı, inzibatçılıqdan əl çəkməlidir. Lakin çox təəssüf ki, bəzən belə olmur. Görürsən ki, qurultayda Əli Vəliyev Mehdi Hüseyni tənqid edən kimi, onun redaktorluqdan çıxarılması məsələsi ortalığa atılır, yaxud başqası plenumda çıxış edib işimizdəki nöqsanlardan danışan kimi, onu

[30] Ədəbiyyat və incəsənət, 1959, 31 oktyabr.

jurnalın redaksiya heyətindən çıxarırlar və s."[31] Mehdi Hüseyn yekun çıxışında ona qarşı yönələn tənqidlərə cavab verdi. O, qeyd etdi ki, *"ittifaqın rəhbərliyində işləyən yoldaşların vəziyyəti bir qədər ağırdır. Ayrı-ayrı sıravi yoldaşlar bu və ya digər əsər haqqında öz fikirlərini deyə bilərlər. Ancaq biz öz mülahizələrimizdə bir qədər ehtiyatlı olmalıyıq, çünki bizim mülahizə və fikirlərimiz təşkilatın rəhbərliyində işləyən bir adamın fikri kimi qalır. Ona görə də, biz hər hansı bir əsər haqqında fikir söyləyərkən, yoldaşlar bizi öz rəyləri ilə razılaşmağa məcbur etməsinlər, bu cəhətdən, yoldaşlar təzyiq göstərməyə tələsməsinlər...Şair Məmməd Rahim dediyi kimi, biz bir –birimizi sevsək də sevməsək də yaradıcılıq işinə həmişə hörmət etməliyik. Biz yaradıcılığımızdakı nöqsanları görməklə bərabər, müvəffəqiyyətlərimizi də göstərməliyik. Məsələn, mən M. Rahimin yaradıcılığında nöqsan görmüşəm, lakin bu mənə onunla gərgin əlaqə saxlamağa əsas vermir".*[32] Bununla da, yaradıcılıq müzakirəsindən daha çox gərgin ittihamlar şəraitində keçən plenum öz işini başa çatdırdı.

Plenumdan az sonra, 1959-cu ilin noyabrında Rəsul Rzanın təşəbbüsü ilə Rəyasət Heyəti Cəfər Cabbarlının 60 illik yubileyinin keçirilməsi barədə Mərkəzi Komitə qarşısında məsələ qaldırdı. Bu məqsədlə Azərbaycan KP MK Moskvaya müraciət etdi və müraciətə cavab olaraq Sov.İKP MK-nın Mədəniyyət şöbəsi müdirinin müavini Petrov telefonla zəng edib Cabbarlının yubileyinin respublika miqyasında

[31] Yenə orada.
[32] Yenə orada.

keçirilməsinə Moskvanın razılığını bildirdi.[33] Bundan sonra Yazıçılar İttifaqının müraciət MK Bürosunun müzakirəsinə çıxarıldı və 1960-cı ilin mart ayında C. Cabbarlının anadan olmasının 60 illiyini keçirmək üçün Rəsul Rzanın sədrliyi ilə komissiya yaratdı. Komissiyaya Şıxəli Qurbanov, Məmməd Qurbanov, Mirzə İbrahimov, Məmməd Arif Dadaşzadə, Sona xanım Cabbarlı, Adil İsgəndərov, Mehdi Hüseyn, Teymur Əliyev, Süleyman Rüstəm, Sabit Rəhman və Samvel Qriqoryan daxil edildilər. Qərarda SSRİ Mədəniyyət nazirliyindən xahiş edilirdi ki, *İskusstvo* nəşriyyatında Cabbarlının iki cildən ibarət pyeslərini nəşr etsin. Azərbaycan Mədəniyyət nazirliyinə tapşırıldı ki, dramaturqun məzarı üstündə onun abidəsini ucaltsın, Cabbarlının bədii portretini buraxsın, mədəni-maarif müəssisələrində onun 60 illiyi ilə bağlı tədbirlər keçirsin, mətbuat səhifələrində, radio və televiziyada onun həyat və yaradıcılığı geniş işıqlandırılsın. Qərarda Elmlər Akademiyasına tapşırılırdı ki, 1960-cı ildə Cabbarlının yaradıcılığına həsr edilmiş məqalələr toplusu nəşr etsin. Eyni zamanda, respublika Nazirlər Sovetinə tapşırılırdı ki, 1960-cı ilin martına qədər C. Cabbarlı adına Azərbaycan teatr muzeyini yeni bina ilə təmin etsin.[34] Lakin sonralar bu qərarın bəzi bəndlərinin yerinə yetirilməsi ilə bağlı bir sıra çətinliklər meydana çıxdı. Bu ilk növbədə direktiv orqanların

---

[33] Şıxəli Qurbanovun Azərbaycan KP MK-ya məlumatı. 19.11.1959.ARPİİSSA, f.1, s.46, i.109, v.122.
[34] Cəfər Cabbarlının anadan olmasının 60 illiyinin keçirilməsi haqqında Azərbaycan KP MK Bürosunun qərarı. 01.12.1959. ARPİİSSA, f.1, s.46, i.122, v.34-35.

qeyri müəyyən vaxta qədər abidələrin qoyulmasın dayandırmaqla bağlı idi. İnşası dayandırılan abidələrin içərisində Cəfər Cabbarlının abidəsi də var idi. Ona görə Rəsul Rza Yazıçılar İttifaqının Rəyasət Heyətində məsələ qaldırdı ki, müstəsna hal kimi Cabbarlının abidəsinin müəyyən edilmiş yerdə qoyulması haqqında yeni qərar çıxarılması üçün Nazirlər Sovetinə müraciət edilməlidir.[35] Rəyasət Heyətinin qərarı əsasında Mehdi Hüseyn bu məsələ ilə bağlı Vəli Axundova məktub göndərdi.[36]

Vladimir Semiçastnının dərkənarı ilə Cəfər Cabbarlının yubiley komissiyasının tərkibinə 1958-ci ildə millətçilik ittihamı ilə rəhbər işdən azad edilmiş Mirzə İbrahimovun daxil edilməsi onun üzərindən bəzi qadağaların götürülməsindən xəbər verirdi. 1959-cu ilin noyabrında isə SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin katibi Voronkov Azərbaycan KP MK-ya teleqram göndərib Mirzə İbrahimovun Bolqarıstana gedən sovet yazıçıları nümayəndə heyətinin tərkibinə daxil edilməsinə razılıq verilməsini xahiş etmişdi. Azərbaycan KP MK Bürosu 17 noyabr iclasında bu razılığı verdi və Büronun qərarını Semiçastnının imzası ilə Sov.İKP MK yanında xaricə gedənlər üzrə komissiyaya göndərdi. Vəli Axundovun təşəbbüsü ilə qəbul olunmuş bu qərar Mirzə İbrahimova münasibətdə siyasi

---

[35] Azərbaycan Sovet Yazıçılar İttifaqının Rəyasət Heyətinin iclası. 03.12.1961.ARDƏİA, f.340, s.1, i.903, v. 9.

[36] Mehdi Hüseynin Vəli Axundova məktubu. 06.12.1961. ARDƏİA, f.340, s.1, i.903, v. 10.

etimadın bərpa edilməsinin bir göstəricisi idi.[37] Siyasi basqılara baxmayaraq Mirzə İbrahimov ədəbi prosesdə avtoritet olaraq qalmaqda idi. Yalnız Azərbaycanda deyil, Azərbaycan ədəbiyyatı ilə bağlı mərkəzdə, Moskvada da onun sözünə, fikrinə böyük hörmətlə yanaşılırdı. 1959-cu ildə İsa Hüseynovun "Doğma və yad adamlar"nı çapa hazırlayanda *Azərbaycan* jurnalı əsəri rəy üçün Mirzə İbrahimova göndərmişdi. İndi müəllif həmin romanı çox istəyirdi ki, Moskvada nəşr etdirsin. Bununla bağlı o, Moskvada yaşayan yazıçı dostu Çingiz Hüseynova yazırdı: "Mirzə müəllim xaricdən Moskvaya gələndə şübhəsiz ki, onu görəcəksən. O, "Doğma və yad adamlar" haqqında yaxşı fikirdədir. Heyf ki, özünü görüb söhbət eləyə bilməmişəm, jurnalın redaksiyasına verdiyi rəyi oxumuşam. Yazır ki, *"əsərin tərbiyəvi əhəmiyyəti böyükdür."* Bu sözlər məni elə bil uca bir dağ başına qaldırdı, oradan geniş üfüqlərə baxdım, ürəyim açıldı. Deyirəm, bəlkə Mirzə müəllim *"Drujbanın"* ("Drujba narodov" jurnalı nəzərdə tutulur – C.H.) redaksiyasına bu əsər barədə deyə. Bu mümkündürmü? Sən bu barədə Mirzə müəllimə xatırlatsan necə düşər?.. Əgər *"Drujba" "Dan ulduzunu"*, *"Yanar ürəyi"* geri qaytardığı kimi *"Doğma və yad adamlar"*ı da geri qaytarsa, bu, mənim üçün böyük zərbə olar...Mənim bu yazımı da belə bir tale gözləmir ki? Axı burada məni didib parçalayırlar, əjdahalar ağızlarını açıb udmağa hazırlaşıbıblar. Məni xilas etsə, ancaq "Drujba"

---

[37] M. İbrahomovun Bolqarıstan gedən sovet yazıçıları nümayəndə heyətinə daxil edilməsinə razılıq verilməsi haqqında Azərbaycan KP MK Bürosunun qərarı. 17.11.1959.ARPİİSSA, f.1, s.46, i.117, v.337.

xilas edə bilər"[38]1961-ci ildə 50 yaşı tamam olanda Azərbaycan KP MK Bürosunun qərarı ilə respublika Ali Sovetinin Rəyasət Heyəti oktyabr ayının 9-da Mirzə İbrahimova Xalq yazıçısı fəxri adı verdi. Bu adın verilməsinə icazə almaq üçün Vəli Axundov Sov.İKP MK-ya Mirzə İbrahimov haqqında müsbət xarakterli ətraflı bir xarakteristika göndərmişdi. Onun 50 illik yubileyi respublika miqyasında təntənəli keçirildi. Tənqidçi Məmməd Cəfər M. İbrahimovun yaradıcılıq yolu haqqında maraqlı bir yubiley yazısı yazdı, Mehdi Hüseyn, Rəsul Rza, Sabit Rəhman, akademik Mustafa Topçubaşov və digərləri onu mətbuat vasitəsi ilə təbrik etdi. Yubiley təbrikində Rəsul Rza yazırdı: *"Yadıma Təbrizin kədərli günləri düşür. Gözü yaşlı qardaşlarımız, bacılarımızla vidalaşırdıq. 'Yanıq dağın' başından qalxan dumana baxıb gələcək günlərdən danışırdıq. Arzularımızdan, ümidlərimizdən danışırdıq. Sonralar sən, sonsuz qəlb ağrısı, coşqun məhəbbət, nifrət, böyük bir inamla yazdığın "Gələcək gün"də milli istiqlaliyyət, doğma vətən torpaqlarının azadlığı uğrunda, əsarət zəncirindən xilas olmaq uğrunda can fəda edən, mübarizə aparan Azərbaycan oğul və qızlarının timsalını: firudinlərin, səriyyələrin unudulmaz, nəcib surətlərini yaratdın. Azadlıq yolunda qurbanlar vermiş bir xalqın dərdini danışdın".*[39]

[38] İsa Hüseynovun Çingiz Hüseynova məktubu. 27.08.1960. Çingiz Hüseynovun şəxsi arxivi.
[39] Ədəbiyyat və incəsənət, 1961, 7 oktyabr

## Sonuç

60-cı illərin əvvəllərində respublika partiya təşkilatı və onun birinci katibi Vəli Axundov ədəbiyyat və incəsənət sahəsinə xüsusi diqqət göstərməyə çalışırdı. Lakin bu diqqət daha çox həmin sahələri və onların təmsilçilərini partiya orqanlarının nəzarətində saxlamağa, yaradıcılıq təşkilatlarını kommunizm quruculuğuna səfərbər etməyə xidmət edirdi. 1959-cu ilin dekabr ayında Yazıçılar İttifaqı Rəyasət Heyəti üzvləri ilə Mərkəzi Komitədə keçirilən 8 saatlıq görüşdən bir il sonra 1960-cı ilin dekabr ayının əvvəllərində ölkənin baş partiya qərargahında yazıçıların müşavirəsi keçirildi. Orada Vəli Axundov, Nazim Hacıyev, Əziz Mirəhmədov, Nazirlər Soveti sədrinin müavini Əli Kərimov və başqa rəhbər şəxslər iştirak edirdi. Müşavirədə İttifaqın birinci katibi Mehdi Hüseyn geniş məruzə ilə çıxış etdi. O, dedi ki, "Biz böyük sürətlə kommunizmə doğru irəliləyən həyatımızı təsvir etmək üçün yeni sözlər və boyalar, yeni və daha mükəmməl bədii formalar tapmalıyıq."[40] Lakin həmin dövrdə real həyat partiya orqanları və kommunizm "qrupçuluğuna" tohvə vermək arzusunda

[40] Ədəbiyyat və incəsənət, 1960, 10 dekabr.

olan yazıçıların dediklərindən çox uzaq idi. Komunizm Sovet xalqının, o cümlədən Azərbaycan xalqının həmin dövrdəki nəsli üçün xəyal olaraq qaldı.

**Kaynaklar**

AXUNDOVA, E., *Heydər Əliyev: şəxsiyyət və zaman, I hissə.* 1923-1969, Bakı 2007, s.180-181.

*Azərbaycan Yazıçılar İttifaqı Rəyasət Heyəti partiya qrupunun iclası,* 14.10.1959. ARDƏİA, f.340, s.1, i.660, v. 4

Ədəbiyyat və incəsənət, 1959, 15 avqust.

Ədəbiyyat və incəsənət, 1959, 30 may.

Ədəbiyyat və incəsənət, 1959, 31 oktyabr.

Ədəbiyyat və incəsənət, 1959, 21 noyabr.

Ədəbiyyat və incəsənət, 1959, 31 oktyabr.

İsa Hüseynovun Çingiz Hüseynova məktubu, (27.08.1960). Çingiz Hüseynovun şəxsi arxivi.

Mehdi Hüseynin Axundova məktubu, 02.10.1959.ARPİİSSA, f.1, s.46, i.109, v.229.

Mehdi Hüseynin Vəli Axundova ərizəsi, (02.11.1959). ARPİİSSA, f.1, s.46, i.122, v.195.

Sovetskaya kul’tura 1959, 1 avgust